**“Azərbaycan Respublikasında insan hüquqlarının qorunması haqqında” Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkilinin (Ombudsmanın) 2024-cü il üzrə məruzəsində qeyd edilmiş təkliflər:**

- uşaq müəssisələrində çalışan mütəxəssislərin, o cümlədən psixoloqların, sosial işçilərin və loqopedlərin uşaq hüquqları, uşaqlarla rəftar qaydaları sahəsində bilik və bacarıqlarının artırılması, onların təlimlərə cəlb edilməsi;
- Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin respublika tabeli rayon polis şöbələrində yerləşən müvəqqəti saxlama yerlərində sıxlığın aradan qaldırılması məqsədilə inzibati qaydada həbs olunan şəxslər üçün Bakı şəhərindən kənarda regional inzibati həbs olunanların saxlanılması mərkəzinin təşkil olunması;
- narkoloji müalicə müəssisələrindəki sıxlığı və müalicə gözləyən şəxslərin sayının çoxluğunu nəzərə alaraq, bu müəssisələr şəbəkəsinin genişləndirilməsi, narkoloq və klinik psixoloqların sayının artırılması, yeni reabilitasiya mərkəzlərinin yaradılması, eyni zamanda narkomanlığa düçar olmuş şəxslərin müalicəsi və reabilitasiyası istiqamətində müasir metodların tətbiq edilməsi;
- məhkumun sağlamlıq vəziyyətinə görə cəzanı çəkməsinə mane olan halları nəzərə alaraq, Azərbaycan Respublikası Səhiyyə Nazirliyi tərəfindən təsdiq edilmiş “Məhkumların xəstəliyə görə cəza çəkməkdən azad edilmələri üçün əsas olan xəstəliklərin siyahısı”na yenidən baxılması;
- həbs yerlərində saxlanılan şəxslərin və məhkumların sağlamlıq hüquqlarının daha effektiv təmini üçün tibbi məlumatların elektron qeydiyyatının aparılması, müəssisələrdə tibbi xidmətlərin sosial xidmətlərə daha sıx inteqrasiyası üzrə zəruri tədbirlərin görülməsi;
- Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsi ilə müəyyən edilmiş məhkumun xəstəliyə görə cəzanı çəkməkdən azad edilməsi haqqında məsələyə o cümlədən Ombudsmanın təqdimatı əsasında baxılması ilə bağlı həmin Məcəllənin 511.2-ci maddəsinə müvafiq dəyişikliklərin edilməsi;
- cəza çəkməkdən şərti olaraq vaxtından əvvəl azad etmə və cəzanın çəkilməmiş hissəsini daha yüngül cəza ilə əvəz etmə ilə bağlı məsələyə, habelə Ombudsmanın vəsatəti əsasında baxılmasına dair Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin 513.1-ci maddəsinə zəruri dəyişikliyin edilməsi;
- penitensiar müəssisələrdə sıxlıq probleminin tibbi xidmətlərə çatımla bağlı neqativ təsirlərinin aradan qaldırılması məqsədilə, xüsusən də istintaq təcridxanalarında saxlanılan şəxslərin sayının çox olması nəzərə alınaraq, həm tibbi heyət, həm də dərman və digər tibbi ləvazimatların müəssisənin saxlanma limitinə deyil, saxlanılan şəxslərin faktiki sayına uyğunlaşdırılması;
- ehtiyatsızlıqdan cinayət törətmiş şəxslərin cəzalarını daha yüngül rejimli cəzaçəkmə müəssisələrində çəkmələri ilə bağlı xarici ölkələrin müsbət təcrübəsi də nəzərə alınmaqla, məntəqə tipli cəzaçəkmə müəssisələrinin əsasında ehtiyatsızlıqdan cinayət törətmiş şəxslər üçün nəzərdə tutulan ayrıca cəzaçəkmə müəssisələrinin yaradılması və təyin edilmiş cəzanın müddətindən asılı olmayaraq ehtiyatsızlıqdan cinayət törətmiş şəxslərin cəzasının həmin müəssisələrdə çəkilməsinin qanunvericiliklə təsbit edilməsi.